

*Oktay ABDULLA,*
*Prezident təqaüdçüsü*

# Vurğunum, Müşfiqim, Şəhriyarım var, Məmməd Arazım var, Bəxtiyarım var.

**Prezident təqaüdçüsü, şair Oktay Abdulla (Oktay Abdulla oğlu Abdullayev) başıqarlı Daşkəsən dağlarının qoynunda dünyaya göz açmışdır. Erkən yaşlarından bədii yaradıcılıqla məşğul olur, zirvəsi qartal oylağı dağlar, durnagözlü bulaqlar, zümrüd meşələr, vətənpərvərlik hissləri Oktayın yaradıcılığının əsas mövzularındandır.**

**Dövrü mətbuatda qəzet, jurnal və almanaxlarda müntəzəm çap olunan Oktay Abdullanın yeni şeirlərini oxuculara təqdim edirik.**

## VARMIŞ

Dedilər sevənlər bəxtəvər olur,
Bilməzdim aşiqin cəfası varmış.
Yaxından, uzaqdan xoş xəbər gəlir,
Nə yaxşı, nə gözəl sədası varmış!

Tellərin, baxışın öyrətdi məni,
Gecəsi, gündüzü söylətdi məni.
Ayrılıq, bu həsrət göynətdi məni,
Cananın, canımda qadası varmış.

Aparır uzağa xəyallar məni,
Kiritməz bu çöllər, səhralar məni.
Öz dərdim dəli tək ağladar məni,
Qəlbimdə ruhumun nidası varmış!

Duyğumun, şerimin təzə sətrisən,
Camalın günəşdi, \göyün sehri sən!
Gecənin, ulduzun, ayın bədrisən,
Vətənin, bu şərqin səfası varmış!

Mübarək hüsnünə bir deyim əhsən,
Dolaşıb gəzirəm, xəyalımda sən.
Sən gülsən, min gülə dəyişmərəm mən,
Oktayın bu gülə fədası varmış!

## GEDİR

**(Nəsiminin əziz xatirəsinə)**

Yazdıqların, fikirlərin bəşəri,
Xəyallarım pərən-pərən yol gedir.
Bu gedişin sərhəddi yox, səddi yox,
Nigaranam, ürəyimdə xal gedir.

Söz əhliyəm, dərd əhliyəm, mən mənəm,
Dərdə sadiq, sözə sadiq, tən mənəm.
Mən torpağam, bu torpaqda dən mənəm,
İstəyini istə məndən, al gedir.

Söz həmdəmim, sözün eşqi, mehriyəm,
Bu kainatın, bu varlığın təhriyəm.
Söz mülkünün gövhəriyəm, sehriyəm,
Tək deyiləm, bax arxamca el gedir.

Yer qapısı, göy qapısı qapımız,
Söz mülkündə öndə durur adımız.
Nizamidir, Füzulidir andımız,
Külli cahan dil ağzımda bal gedir.

Söz mənimdir, suallara cavab yox,
Təhdidlərə, təqiblərə dözdüm çox.
Sözüm dildə cismi-canım özüm yox,
Oxu məni, yaddaşına sal, gedir.

İsinmədin yad ocaqda közə sən,
Şair odu, hər bəlaya dözəsən.
Möhür vurdun insanlığa, sözə sən,
Cümlə-cahan düşünməsin lal gedir.

Dünya, Hələb eşitmədi səsini,
"Həq" söylədin, Göydən aldın dərsini,
Heyrətdəyəm kamalına, Nəsimi,
Dizdən taqət, başdan papaq, şal gedir.

Sən yer oğlu, sən göy oğlu məndəsən,
Ustad, şair, sən bəşəri bəndəsən!
Hər bir zaman çağrışdasan, ündəsən,
Əsr dəyişir, qərinələr il gedir.

## QAYTAR

Şair var gəlişi, gedişi naşı,
Çiyninin üstündə gəzdirir daşı.
Allahım, sən məni gözümdən daşı,
Allahım, sən məni gözümə qaytar.

Şair var məclisi şərəfsiz olur
Şair var ölümü döyüşsüz olur.
Şair var ölümü ölümsüz olur,
Allahım, sən məni ərzimə qaytar!

Vurğunum, Müşfiqim, Şəhriyarım var,
Məmməd Arazım var, Bəxtiyarım var.
Şairlər ordusu iftixarım var,
Allahım, sən məni sözümə qaytar.

Duyğusal şairin sözündə hikmət,
Şair var sədası tanımır sərhəd.
Oynadır ruhumu, oynadır fəqət,
Allahım, sən məni dözmümə qaytar.

Çəkilən zəhmətə verilsə qiymət,
Ordadır halallıq bərəkət, qismət.
Dağ hündür görünər ucadır zəhmət,
Allahım, sən məni əzmimə qaytar.

Şairə aqillər vermişdir qiymət,
Şairə ehtiram, şairə hörmət.
Şairin söhbəti, sözü şeriyət,
Allahım, Oktayam, özümə qaytar.

## DÜNYA

Qiyamət insanın əməlindədir,
Ölçülür, biçilir, təməlindədir.
Nəyi var, nəyi yox əzəlindədir,
Qınama sən məni, qınama, dünya.

De, mənim nəyim var, itrəcək birdə,
Nəyin var sən gizlət, saxla dərində.
Ol desə sovrular, qalmaz külün də!..
Yanıma sən məni, yanıma dünya.

İlahə İlləllah, küllü cahandı,
O mənim güvəncim, mənə həyandı.
Arifə, aqilə sözüm bəyandı,
Tanıma sən məni, tanıma dünya.

Hər müşkül işlərin düşməz yoluna,
Yoxunsa mərhəmət Allah quluna.
Edərsən, etməzsən yazıq halına,
Susama qanıma, susama dünya.

Oktayam, nəyim var düzünü dedim,
Taparsan dərinlik, yüzünü dedim.
Var hikmət sözümdə, sözümü dedim,
Sınama sən məni, sınama dünya.

## BU DAĞLAR

Çox tərif demişəm, danışmır, dinmir,
A dostlar bilməyin, laldı, bu dağlar.
Çəməni, çiçəyi çəkir gözümü,
Sən demə şəkərdi, baldı bu dağlar.

Bu dağlar vüqarım, bu dağlar səsim,
Səndədir ilhamım, təbim həvəsim.
Dağlardı varlığım, mənim nəfəsim,
Don geyib qumaşdan, aldı bu dağlar.

Görünmür zirvəsi, mayası haqdan,
Ram edir könlümü, çəkir uzaqdan.
Gülmürdü bu könlüm, üzüm nə vaxtdan,
Dərdimi ürəkdən aldı bu dağlar.

Heyrətdən çaşqınam, nədir çağrışı?!
Keçir qərinələr, bilinmir yaşı.
Gözəldi baharı, gözəldi qışı,
Ağlımı başımdan çaldı bu dağlar.

Ruhumu, təbimi zilə köklədim,
Qoymadım bir pərdə silə köklədim.
Elimdən güc aldım, elə köklədim,
Oktayla xəyala daldı bu dağlar.

## ALLAHIM

Milçəyi böyüdüb fil eyləyirlər,
Söz üstə gətirib dil eyləyirlər.
Bu gözəl dünyanı gül eyləyirlər,
Yaşamaq olurmu? Olur Allahım!

Dəyişib tərəflər, dünya bir anda,
Görmürəm ədalət çərxi zamanda.
Bir təlaş, bir qorxu gəzir canımda,
Yaşamaq olurmu? Olur Allahım!

Çox hədə gəlirik bir-birimizə,
Olmuruq düşmənə sancılan niyə.
Yazıq bənövşəyə, yazıq nərgizə,
Yaşamaq olurmu? Olur Allahım!

Tuş gəldik qarğışa, acıya, aha,
Namərddən nə deyim vəzirə, şaha?
Dünyanın özünə şübhəm var daha,
Yaşamaq olurmu? Olur Allahım!

Nəçiyəm, mən kiməm, kimə nə deyim?
Bir deyil, yüz deyil, minə nə deyim?
Boz düşüb gözümə, qalmayıb heyim,
Yaşamaq olurmu? Olur Allahım!

A dostlar, ərənlər igidlər hanı?
Göstərsin sərhəddi Vətəni tanı
Qaldır barmağını düşməni yanı,
Yaşamaq olurmu? Olur Allahım!

Oxusun Xan əmi, Bülbülüm barı,
Dərdimə dərman tək tən olsun yarı.
Oktayam, səfərim yetmişə sarı,
Yaşamaq olurmu? Olur Allahım!

## ŞERİM

Gəldikcə könlümə söz-söz yaratdım,
Yığışaq bir dedim bəhrinə şerim.
Qoşqardan, Kəpəzdən dər çiçək gətir,
Bir az da bələnək ətrinə şerim.

Almasan gücünü ədalət Haqdan,
Ətirsiz çiçəksən nə çıxar yoxdan.
Gəlişin şah olsa düşərsən taxtdan,
Söz gələr qorxuram, təhrinə şerim.

Dolaşdın dillərdə, sən yorulmadın,
Nahaqdan yaranıb sən doğulmadın.
Çağladın bir ucdan sən soğulmadın,
Düşməzmi çoxları sehrinə şeirim.

Hər zaman özünü yamandan qoru,
Süzül dodağımdan hey ax sən duru.
Getsə qətrə-qətrə gözümün nuru,
Baş qoyub yataram mehrinə şerim.

Sən mənim duyumum, iki gözümsən,
Varlığım, qüdrətim, ruhum, sözümsən.
Ümmanım, çaylarım, elə özümsən,
Oktayam, düşmüşəm nəhrinə şerim.

**Gəncə şəhəri**